**SMG Xidmətləri**
**Beynəlxalq Məxfilik Siyasəti**

Qüvvəyəminmə Tarixi: Mart 2018

Bu Məxfilik Siyasəti bu və yadigər veb-saytlar, xidmətlərvə tətbiqi proqramlar, o cümlədən bu Məxfilik Siyasətinin göndərilmiş, keçid almış yaxud istinad edilmiş olduğu mobil tətbiqlər vasitəsilə toplanılmış Şəxsi Məlumatların SMG tərəfindən emalına şamil edilir (ümumi şəkildə, "**SMG Xidmətləri**"). "Şəxsi Məlumat" təyin edilmiş yaxud təyin edilməkdə olan fiziki şəxsə aid məlumata deyilir. SMG Xidmətləri Service Management Group, LLC, Service Management Group Limited, Service Management Group GK və onların müvafiq törəmə müəssisələrinin mülkiyyətindədir və/yaxud onlar tərəfindən həyata keçirilir (ümumi şəkildə, "**SMG**," "biz" yaxud "bizi, bizə"). Bu Məxfilik Siyasəti Şəxsi Məlumatınızı necə topladığımızı və onları necə emal etdiyimizi təsvir edir.

BU MƏXFİLİK SİYASƏTİNİ DİQQƏTLƏ NƏZƏRDƏN KEÇİRİN. Şəxsi Məlumatınız bu Məxfilik Siyasətində təsvir edildiyi qaydada toplanacaq və emal ediləcək.

Əgər hələ bunu etməmisinizsə, veb-saytlar, tətbiqi proqramlar, xidmətlər və mobil tətbiqlərin istifadəsini tənzimləyən şərtlərdən ibarət olan SMG-nin Xidmət Şərtlərini nəzərdən keçirin.

**ƏGƏR SİZ BU MƏXFİLİK SİYASƏTİNİN YAXUD XİDMƏT ŞƏRTLƏRİNİN HƏR HANSI BİR HİSSƏSİ İLƏ RAZI DEYİLSİNİZSƏ, SMG XİDMƏTLƏRİNİN HEÇ BİRİNDƏN İSTİFADƏ ETMƏYİN.**


1. **MƏXFİLİK SİYASƏTİNƏ DƏYİŞİKLİKLƏR**
2. **SMG TƏRƏFİNDƏN EMAL EDİLMİŞ ŞƏXSİ MƏLUMATIN KATEQORİYALARI**
3. **BİZ İNFORMASİYANI NECƏ ƏLDƏ EDİRİK VƏ ONUN EMAL EDİLMƏSİNİN MƏQSƏDLƏRİ**
4. **EMAL ÜÇÜN HÜQUQİ ƏSASLAR**
5. **BİZ ŞƏXSİ MƏLUMATDAN NECƏ İSTİFADƏ EDİRİK VƏ ONU NECƏ PAYLAŞIRIQ**
6. **ŞƏXSİ MƏLUMATIN SAXLANILMASI VƏ LƏĞV EDİLMƏSİ**
7. **ŞƏXSİ MƏLUMATLARIN EMALI İLƏ ƏLAQƏDAR OLAN HÜQUQLARINIZ VƏ SEÇİMLƏRİNİZ**
8. **ŞƏXSİ MƏLUMATIN TƏQDİM EDİLMƏMƏSİNİN NƏTİCƏLƏRİ**
9. **KUKİLƏR SİYASƏTİ**
10. **HESAB MƏLUMATINIZIN İDARƏ EDİLMƏSİ**
11. **UŞAQLARIN MƏXFİLİYİNİN QORUNMASI**
12. **ÜÇÜNCÜ TƏRƏFLƏRİN XİDMƏTLƏRİNƏ LİNKLƏR**
13. **MƏLUMATIN TƏHLÜKƏSİZLİYİ**
14. **COĞRAFİ AMİLLƏR VƏ ŞƏXSİ MƏLUMATIN SƏRHƏDLƏR ÜZƏRİNDƏN ÖTÜRÜLMƏSİ**
15. **BİZİMLƏ ƏLAQƏ**
16. **MƏLUMAT NƏZARƏTÇİSİ VƏ MƏLUMAT MÜHAFİZƏSİ ÜZRƏ MƏSUL ŞƏXS**


## 1. BU MƏXFİLİK SİYASƏTİNƏ DƏYİŞİKLİKLƏR

Biz bu Məxfilik Siyasətini, ona təsiri olan yeni xidmətlərin və tətbiqiproqramlarınəlavə edilməsi, xidmətlərimizin yaxşılaşdırılması kimi dəyişikiliklər edərkən və texniki həll yollarında və qanunlarda olan dəyişiklikləri uyğunlaşdıran zaman vaxtaşırı yeniləyirik. Bu veb-saytın yuxarısında göstərilən, bu Məxfilik Siyasətinin Qüvvəyəminmətarixi, onun sonuncu dəfə yenilənmiş olduğu tarixi əks etdirir. Bu dəyişikliklər əhəmiyyət kəsb etdiyi zaman SMG sizi məlumatlandıracaq və müvafiq qanunun tələb etdiyi hallarda biz sizin razılığınızı əldə edəcəyik. Bu məlumat, veb-saytımızda yaxud tətbiqiproqramlarımız üzərindən dəyişikliklər barədə bildirişin göndərilməsi ilə təmin ediləcək.

## 2. SMG TƏRƏFİNDƏN EMAL EDİLMİŞ ŞƏXSİ MƏLUMATIN KATEQORİYALARI

SMG, məhsulları və xidmətləri ilə əlaqədar istehlakçıların nəyə üstünlük verdiklərini daha yaxşı anlamaq istəyən şirkətlərin adından bazarın araşdırılmasını həyata keçirir. Bu şirkətlər bizim "**Müştərilər**"imizdirlər. Biz Müştərilərimizin adından sorğular keçiririk (ümumi şəkildə **"Sorğular"**) və topladığımız məlumatdan istehlakçıların pərakəndə satış nöqtələrini harada, nə zaman və necə ziyarət etdikləri barədə və həmin ziyarətlər zamanı onlarda yaranan təəssüratlar kimi istehlakçı təhlilinin nəticələrini əldə etmək üçün istifadə edirik. Sorğuda iştirak etdiyiniz yaxud SMG xidmətlərindən istifadə etdiyiniz zaman biz sizin könüllü olaraq verdiyiniz Şəxsi Məlumatı toplayırıq.

Topladığımız Şəxsi Məlumata daxildir: (1) əlaqə məlumatı (e-poçt ünvanı, telefon nömrəsi və işəgötürən); (2) demoqrafik məlumat (cinsiniz, doğum tarixi və indeks); (3) sorğulara verdiyiniz cavablar təmin edilmiş məlumat çərçivəsində sizi təyin edir yaxud fərdi olaraq təyin edilən şəxs kimi sizinlə əlaqələndirilir; və (4) SMG Xidmətlərindən istifadənizlə əlaqədar olan məlumat ("İstifadə Barədə Məlumat").

Bizim topladığımız İstifadə Barədə Məlumata daxildir: (1) IP ünvanı; (2) domen serveri; (3) Xidmətlərdən istifadə üçün istifadə edilən cihazların tipi; (4) brauzeriniz yaxud cihazınız arasında olan cihazın modeli, provayder/şəbəkə, batareyanın qalan istismar müddətinə əsaslanan və yerindən asılı olan nümunəni optimallaşdırmaq üçün, batareyanın istismar müddəti məlumatı kimi qarşılıqlı münasibətlə əlaqəli statistika və informasiya, bundan əlavə, cihazınız barədə əsas istifadə statistikası; (5) cihazınızda olan məkan (yaxud bu kimi) parametrlərindən istifadə etməklə informasiya əldə etməyimizə imkan verdiyiniz zaman real vaxt GPS yaxud digər coğrafi dislokasiya məlumatı; (6) Xidmətləri əldə etdiyiniz veb-sayta yaxud digər mənbəyə istinad edilməsi. Siz onlayn rejimdə Sorğularda iştirak edən zaman, biz dələduzluğun aşkar edilməsi və qarşısının alınması məqsədilə cihazınız barədə çoxsaylı fərqləndirici xüsusiyyətlər toplayırıq.

## 3. BİZ İNFORMASİYANI NECƏ ƏLDƏ EDİRİK VƏ ONUN EMAL EDİLMƏSİNİN MƏQSƏDLƏRİ

Biz, bizə verdiyiniz və SMG Xidmətlərindən istifadənizdən əldə etdiyimiz məlumatı toplayırıq və onu emal edirik. Məlumatı necə toplamağımız və emal etməyimiz SMG Xidmətlərini necə əldə etdiyinizdən və istifadə etdiyinizdən asılıdır.

**Sizdən.** Siz Sorğuya Cavab Verərkən:

- **Biz sizdən məlumat toplayırıq:** Biz sizin istehlakçı təəssüratlarınız və seçimləriniz barədə Sorğuya verdiyiniz cavablardan məlumat toplayırıq. Biz sizin istehlakçı təəssüratlarınızı daha yaxşı anlamaq üçünSorğuya verdiyiniz cavablardan ibarət olan məlumatla müştərilərimizdən aldığımız məlumatı (məs: müştərilərimizin loyallıq proqramlarında iştirakınız barədə olan məlumatlar) birləşdirə bilərik. Biz həmçinin, ümumi istehlakçı təəssüratlarını daha yaxşı anlamaq üçünsizin Sorğuya verdiyiniz cavablardan ibarət olan məlumatla digər istifadəçilərin Sorğuya verdikləri cavablardan ibarət olan məlumatı birləşdirə bilərik. Siz Sorğuda iştirak edən zaman seçərək bizə təqdim etdiyiniz məlumat Müştərilərimiz üçün olan istehlakçı təəssüratları və seçimləri üzrə hesabatlarda və təhlillərdə yaxud məlumatı əldə edərkən sizi xəbərdar etməklə digər məqsədlər üçün istifadə ediləcək. Əgər sizin haqqınızda olan məlumatdan hesabatlarda və təhlillərdə yaxud xəbərdar edildiyiniz digər məqsədlər üçün istifadə edilməsini istəmirsinizsə, siz Sorğuda iştirak etməməyi seçə bilərsiniz.

- **SMG Xidmətlərindən istifadə edin.** Siz kukilər və digər verilənlərin toplanılması vasitələrindən istifadə etməklə, SMG Xidmətləri ilə qarşılıqlı əlaqədə olduğunuz zaman

biz avtomatik olaraq İstifadə Barədə Məlumatı toplayırıq. Biz bu İstifadə Barədə Məlumatdan sizin cihazınız və bizim sistemlərimiz arasındakı əlaqələri asanlaşdırmaq, Sorğuları çatdırmaq, Sorğunun toxunulmazlığnı təmin etmək, dələduzluğu aşkar etmək və qarşısını almaq, bazar araşdırması aparmaq, veb-saytımızı və tətbiqi proqramlarımızı idarə etmək, SMG Xidmətlərinin istifadəsini təhlil etmək, bu xidmətləri yaxşılaşdırmaq və təkmilləşdirmək üçün istifadə edirik. Kukilərdən və bunun kimi məlumat toplama vasitələrindən necə və nə üçün istifadə etməyimiz baradə daha ətraflı məlumat əldə etmək üçün bu Məxfilik Siyasətinin "Kuki Siyasəti" bölməsinə baxın.

- **SMG Xidmətlərindən istifadə edərkən şəxsi məlumatınızı təqdim edin:** Siz SMG Xidmətlərindən istifadə ilə əlaqədar olaraq (məs: yardım yaxud məlumat üçün bizə müraciət etmək yaxud Müştərilərimizdən biri ilə olan təəssüratlarınız barədə şərhlərinizi bizə bildirmək), Şəxsi Məlumatınızı təqdim edən zamanbiz təqdim etdiyiniz məlumatı toplayır və təhlil edirik. Siz şərhlərinizi SMG-yə təqdim edərkən həmin məlumat Müştərilərimizə göstərdiyimiz xidmətlərə və bütünlükdə, bizim bazar araşdırmamıza öz töhfəsini verir. Şərhləriniz sizin icazənizlə TrumpetRatings.com veb-saytına yerləşdirilə və/yaxud Müştərilərimizin veb-saytlarına göndərilə bilər Belə məlumat TrumpetRatings.com kimi ictimai forumda yaxud hər kəs üçün açıq olan digər veb-saytlarda yerləşdirilən zaman hər kəs üçün açıq məlumata çevrilir. Sizin yazdıqlarınızı üçüncü tərəflər görə və/yaxud toplaya bilər və onlar bizim nəzarət edə bilmədiyimiz yaxud əvvəlcədən xəbər verə bilmədiyimiz qaydada digərləri tərəfindən istifadə edilə bilər.

- **Sosial Media üzərindən SMG Xidmətlərini əldə edin:** SMG bəzi SMG Xidmətlərini əldə etmək üçün sizə sosial şəbəkə xidmətlərindən (ümumi şəkildə **"Sosial Media"**) istifadə etmək imkanı təklif edə bilər. Siz SMG Xidmətlərini Sosial Medianın identifikasiya rekvizitlərindən istifadə edərək əldə etməyi seçdiyiniz zamanSMGməxfilik parametrlərinizdən asılı olaraq, Sosial Media platformasına təqdim etdiyiniz informasiyanı (məs: Sosial Media hesabınız ilə əlaqəli olan adınız, e-poçt ünvanınız, profil şəkliniz, postlarınız, şərhləriniz və digər məlumatlar) əldə edə bilər. kimi. Biz həmin informasiyadan bu Məxfilik Siyasətində təsvir edilmiş istənilən məqsədlər üçün və mövcud informasiya toplanılan zaman sizə bildirilmiş digər məqsədlər üçün istifadə edə bilərik. Əgər Sosial Mediada olan məlumatlarınızın Sosial Media provayderi tərəfindən SMG ilə paylaşılmasını istəmirsinizsə, siz SMG Xidmətlərini əldə etmək üçün Sosial Media hesablarınızdan istifadə etməməlisiniz.

**Müştərilərimizdən.** Bəzi məhsullarımız və xidmətlərimiz üçün Müştərilərimiz onların brendləri, məhsulları və xidmətləri ilə olan qarşılıqlı münasibətləriniz (bu münasibətlər qeydiyyatdan keçdiyiniz istənilən loyallıq proqramları ilə əlaqədar olan və Müştərilərimizlə olan sövdələşmələriniz barədə məlumatı ehtiva edə bilər) barədə məlumatı bizə göndərə bilərlər. Biz bu məlumatı Müştərilərimiz üçün həyata keçirdiyimiz bazar araşdırmasını və göstərdiyimiz xidmətləri təkmilləşdirmək məqsədi ilə topladığımız digər məlumatla birləşdirə bilərik.

## 4. EMAL ÜÇÜN HÜQUQİ ƏSASLAR

**4.1.** Sorğuda iştirak edərkən yaxud SMG Xidmətlərindən istifadə edərkənbiz sizin əlaqə məlumatınızı, demoqrafik məlumatınızı və Sorğuda verdiyiniz cavabları emal edirik. Biz, həm Müştərilərimizin alıcılarının məhsullarının və xidmətlərinin təkmilləşdirilməsinə kömək etmək üçün onlardan rəy almalarında Müştərilərimizin qanuni maraqlarına əsaslanaraq və onların alıcılarının və bizneslərinin maraqlarına uyğun olaraq, həm də SMG-nin məhsulları, xidmətləri və bazar araşdırması ilə əlaqədar təkmilləşdirilməsində qanuni maraqlarına əsaslanaraq və istifadəçilərin yardım yaxud məlumat üçün olan tələblərinə cavab verərək belə Şəxsi Məlumatı emal edirik.

**4.2.** Siz Sorğuda iştirak edərkən yaxud SMG Xidmətlərindən istifadə edərkən biz sizin İstifadə Barədə Məlumatınızı emal edirik. Biz bu İstifadə Barədə Məlumatı Sorğuda iştirak etmənizə davam etməyi seçdiyiniz, SMG-nin kukilərdən və digər verilənlərin toplanılması texnologiyalarından istifadəsinə olan razılığınızı təsdiqlədiyiniz zaman emal edirik. Siz e-poçt vasitəsilə privacyofficer@smg.com Məlumat Mühafizəsi üzrə Məsul şəxsə müraciət edərək yaxud Data Protection Officer, Service Management Group, LLC, 1737 McGee Street, Kansas City, MO 64108. ünvanına yazaraq razılığınızı ləğv edə bilərsiniz.

**4.3.** Biz həmçinin, siz SMG xidmətləri ilə əlaqədar olaraq sosial şəbəkələrdən istifadə etdiyiniz zamanməxfilik parametrlərindən asılı olaraq, Sosial Media platformalarına təqdim etdiyiniz məlumatları emal edə bilərik. Biz sizin sosial şəbəkə xidmətlərində olan məxfilik parametrlərində göstərdiyiniz razılığınıza əsaslanaraq belə məlumatları emal edirik. Siz Sosial Mediada olan məlumatlarınızı bundan sonra əldə etməmizə imkan verməməniz üçün məxfilik parametrlərini dəyişdirərək razılığınızı ləğv edə bilərsiniz.

**4.4.** Biz Müştərilərimizin brendləri, məhsulları və xidmətləri ilə olan qarşılıqlı münasibətlərinizlə əlaqədar olaraq, onlardan aldığımız məlumatı emal edirik. Biz belə məlumatıSMG-nin və Müştərilərimizin məhsullarının və xidmətlərinin yaxşılaşdırılması və təkmilləşdirilməsi, həmçinin SMG-nin bazar araşdırmasının təkmilləşdirilməsi də daxil olmaqla, SMG-nin və onun Müştərilərinin qanuni maraqları əsasında emal edirik.

## 5. BİZ ŞƏXSİ MƏLUMATDAN NECƏ İSTİFADƏ EDİRİK VƏ ONU NECƏ PAYLAŞIRIQ

Bizim topladığımız yaxud sizin təqdim etdiyiniz məlumatı necə istifadə etməyimiz və paylaşmağımız, sizin SMG Xidmətlərindən necə istifadə etməyinizdən yaxud onları necə əldə etməyinizdən asılıdır. Qanunla tələb edildiyi zamanSMG şəxsi məlumatı üçüncü tərəflərə verməmizi dayandırmamız barədə tələbinizə uyğun hərəkət edəcək.

- **Sizinlə Əlaqələr.** Şəxsi Məlumatınızlazım olduğu qaydada münasibətlərimizi idarə etmək və sizinlə poçt, telefon, e-poçt, mobil cihazla bildirişlər və SMS vasitəsilə əlaqə saxlamaq üçün istifadə ediləcək. Əgər sorğu respondenti xüsusi olaraq əlaqə qurmağı xahiş etməzsə, SMG sorğunun düzgünlüyünün təsdiqlənməsi, Sorğuların çatdırılması, sorğuda iştirakın nəticəsində qazanılmış mükafatların yaxud güzəştlərin, yaxud müştəri xidmətinin təmin edilməsi üçün yalnız zəruri hallarda sorğu respondenti ilə əlaqə saxlayacaq. SMG Şəxsi Məlumatınızdan birbaşa olaraq marketinq məqsədləri üçün istifadə etməsə də, siz Şəxsi Məlumatınızı özləri üçün topladığımız müştərinin də bunu etmədiyini müəyyənləşdirməniz üçünhəmin müştərinin Məxfilik Siyasətini nəzərdən keçirməlisiniz. Biz Şəxsi Məlumatınızı sizinlə olan münasibətlərimizin idarə edilməsinə kömək edən xidmət provayderləri ilə paylaşa bilərik.

- **Tələb etdiyiniz xidmətlərin icrası** Bizməlumat və materiallarınızın elan məkanlarına, forumlara yaxud Sosial Media səhifələrimizə göndərilməsi kimi xahiş etdiyiniz xidmətləri yaxud başladığınız işləri yerinə yetirməmiz üçün Şəxsi Məlumatınızdan istifadə edə və onu paylaşa bilərik. Bundan əlavə, bizə icazə verdiyiniz halda, biz SMG Xidmətləri vasitəsilə əlaqə saxlamaq istədiyiniz istənilən şəxsə sizi tanıtmamız üçün Şəxsi Məlumatınızı açıqlaya bilərik. Bundan başqa, biz Şəxsi Məlumatınızıəldə etmək istədiyiniz və Sorğularda iştirak edərək qazandığınız mükafatların və güzəştlərin çatdırılması üçün üçüncü tərəflərlə istifadə edə və onlarla paylaşa bilərik. Əgər siz lotoreyalarda yaxud digər reklam kampaniyalarında iştirak etməyi seçsəniz, biz həmin kampaniyaların administratorlarının suallarınıza cavab verə bilmələri yaxud qazandığınız priz və ya kampaniya ilə əlaqəli digər məsələlər barədə sizinlə əlaqə saxlaya bilmələri üçünməlumatlarınızı onlara göndəririk.

- **SMG xidmətlərinin istifadəsinin təhlili və yaxşılaşdırılması.** Biz kukilərdən və digər verilənlərin toplanılmasıvasitələrindən toplanılmış Şəxsi Məlumatınızdan analitik materiallar, dələduzluğun aşkar edilməsi və SMG Xidmətləri göstəricilərinin yaxşılaşdırılması üçün istifadə edirik. Biz üçüncü tərəfin veb-saytının analitik xidmətlər bölməsindənmaus kliklərinin,, mausun hərəkətlərinin,, təsvirin fırlanması fəaliyyətinin və sərbəst formalı mətn çərçivələrinə yazdığınız mətnlərin qeyd edilməsidaxil olmaqla, fiziki şəxslərin SMG Xidmətlərindən necə istifadə etdiklərinin təhlili üçün istifadə edə bilərik. Biz üçüncü tərəfin xidmətlərindən toplanılmış məlumatdan, xidmətlərimizin təkmilləşdirilməsi və istifadəçi təəssüratınızın yaxşılaşdırılması, istifadəçilərimizin SMG Xidmətlərini necə qiymətləndirdiklərini və onlardan necə istifadə etdiklərinin daha yaxşı başa düşülməsi üçün istifadə edirik.

- **Məlumatların digər xidmət provayderləri ilə paylaşılması.** Biz məlumatlarınızıŞəxsi Məlumatınız da daxil olmaqla, yerləşdirilmə, məlumatın saxlanılması və təhlükəsizlik tədbirləri kimi işlərin görülməsi üçün cəlb etdiyimiz xidmət provayderləri ilə paylaşa bilərik. Biz Şəxsi Məlumatınızı həmçinin, işlətdiyimiz veb-saytların qiymətləndirilməsi və yoxlanılması kimi digər müvafiq SMG xidmətlərinin lazım olduğu qaydada göstərilməsi üçün də paylaşa bilərik.

- **Məlumatların müştərilərlə paylaşılması.** Əgər siz SMG Xidmətlərindən Müştərilərimizdən biri ilə olan istehlakçı təəssüratınızla əlaqədar olaraq Sorğuda iştirak etmək üçün istifadə edirsinizsə, biz həmin Müştəriyə aid olan Sorğu cavablarınızı dəyərləndirərək sizdən topladığımız Şəxsi Məlumatınızı paylaşırıq. Biz həmçinin, bu Şəxsi Məlumatdan bazar araşdırması nəticələrinin əldə edilməsi, Müştərilərimizin istehlakçı davranışı üzrə analitik materiallar və biznes kəşfiyyat materialları ilə təmin edilməsi üçün istifadə edə bilərik. Onun üçün topladığımız Şəxsi Məlumatınızdan Müştərinin necə istifadə etdiyini, onu necə qoruduğunu və emal etdiyini öyrənmək üçün həmin Müştərinin məxfilik siyasətini oxuyun. Biz və Müştərilərimiz həmçinin, sizdən yaxud başqalarından, Müştərinin yaxud üçüncü tərəf mənbələrindən toplanılan Şəxsi Məlumat da daxil olmaqla, müxtəlif növ məlumatları birləşdirə bilərik. SMG bir yerə toplanmış məlumatdan bu Məxfilik Siyasətində təsvir edilmiş istənilən məqsəd üçün istifadə edə bilər və Müştərilərimiz də belə məlumatdan onların məxfilik siyasətlərində təsvir edilmiş istənilən məqsəd üçün istifadə edə bilərlər.

- **Vəzifələrin və hüquqların yerinə yetirilməsi.** Biz həmçinin sizdən topladığımız məlumatı, lazımi qaydada, hüquqlarımızı yerinə yetirmək, mülkiyyətimizi yaxud haqlarımızı qorumaq, başqalarının mülkiyyətini yaxud təhlükəsizliyini qorumaq yaxud lazım olduğu qaydada xarici audit, hüquqi təhlükəsizlik və korporativ idarəetmə prosedurları üçün paylaşa bilərik. Biz Şəxsi Məlumatı lazım bildiyimiz şəkildə məhkəmə çağırışına, şəxsi məlumatları qoruma orqanının yaxud hakimin əmrinə, məhkəmənin əmrinə, hökumət orqanlarının tələbinə yaxud normativ öhdəliklərə cavab vermək üçün açıqlayacayıq və bütün hallarda bu qurumlar yaşadığınız ölkənin xaricində ola bilərlər. Biz həmçinin, hüquqi müdafiə vasitələrindən istifadə etmək yaxud məruz qala biləcəyimiz zərərləri məhdudlaşdırmaq üçün tələb olunan qaydada Şəxsi Məlumatları paylaşa bilərik.

- **Korporativ dəyişikliklərlə əlaqədar olaraq məlumatların ötürülməsi.** Biz, faktiki yaxud gözlənilən yenidənqurulma, birləşmə, satış, müştərək müəssisə, vəzifə təyinatı, köçürmə, əldə etmə yaxud mülkiyyətçiliyin başqa şəkildə dəyişməsi yaxud SMG tərəfindən yaxud SMG-nin yaxud istənilən törəmə müəssisənin (hər bir halda bütövlükdə yaxud hissələr şəklində), məhdudiyyətsiz olaraq müflisləşmə yaxud bənzər prosedurlarla əlaqədar olaraq, Şəxsi Məlumatınız da daxil olmaqla sizin haqqınızda olan məlumtları ötürə bilərik. Şəxsi Məlumatı ötürdüyümüz istənilən belə qurumdan, bu Məxfilik Siyasətində müəyyən edilmiş məqsədlərlə uyğunlaşmayan istənilən emaletmə məqsədləri, həmçinin bu Məxfilik Siyasətində müəyyən edilmiş istifadə

qaydasından əhəmiyyətli dərəcədə fərqli olan istifadə qaydaları barədə məlumatla sizi təmin etmələri tələb ediləcək. Qanunla tələb edilən hallarda, həmçinin belə qurumdan razılığınızın alınması tələb ediləcək.

- **Şəxsi məlumatların digər iş məqsədləri üçün istifadə edilməsi.** Biz həmçinin Şəxsi Məlumatınızdan məhsul və xidmətin təkmilləşdirilməsi, SMG Xidmətlərinin idarə edilməsi kimi digər qanuni iş məqsədləri üçün istifadə edirik.

## 6. ŞƏXSİ MƏLUMATIN SAXLANILMASI VƏ LƏĞV EDİLMƏSİ

Biz Şəxsi Məlumatınızı ilkin olaraq toplanmış olduğu məqsədlər üçünzəruri olduğundan artıq olmayaraq arxivimizdə saxlayacağıq. Belə məlumatlar artıq ilkin olaraq toplanmış məqsədlər üçün lazım olmadığı halda, biz elektron formatda olan Şəxsi Məlumatlarınızı təhlükəsiz şəkildə siləcəyik və bizim hüquqi öhdəliklərimizə uyğun gələnlər xaric, Şəxsi Məlumatların kağız üzərində olan bütün surətlərini təhlükəsiz şəkildə xırda-xırda doğrayacağıq.

## 7. ŞƏXSİ MƏLUMATLARIN EMALI İLƏ ƏLAQƏDAR OLAN HÜQUQLARINIZ VƏ SEÇİMLƏRİNİZ

Siz SMG Xidmətlərindən bir daha istifadə etməyərək istənilən vaxt Sorğuda iştirakınızı dayandıra bilərsiniz.

Əgər siz Şəxsi Məlumatlarınızla əlaqədar, sizə xüsusi işlər tələb edən hüquqlar verən qanun və ya qaydaların mövcud olduğu yerdə yaşayırsınızsa, sizə belə qanun yaxud qaydalarla, hansılar ki, sizə Şəxsi Məlumatlarınızın əldə edilməsi yaxud düzəldilməsi(*məs.* düzəltmə yaxud əlavə etmə) yaxud onların silinməsi, məlumatlarınızın ötürülməsi (*yəni* məlumatların daşınılabilmə imkanı) , Şəxsi Məlumatlarınızın emalına məhdudlaşdırma, habelə onların emalından imtina edilməsi, razılığınızın ləğv edilməsi, hesabınızın ləğv edilməsi və idarəedici orqandan şikayət etmə imkanının tələbi da daxil olmaqla xüsusi haqqlar veriləcək. Bütün belə tələblər müvafiq qanun və qaydalarda müəyyən edilmiş parametrlərə uyğun olaraq nəzərdən keçiriləcək.

Əgər siz Avropa Birliyində yaşayırsınızsa, sizin Ümumi Məlumat Mühafizə Qaydalarına uyğun olaraq SMG-dən Şəxsi Məlumatlarınızın əldə edilməsini yaxud düzəldilməsini yaxud onların silinməsini, məlumatlarınızın ötürülməsini, Şəxsi Məlumatlarınızın emalına məhdudlaşdırmasını, onların emalından imtina edilməsini, razılığınızın ləğv edilməsinir consent, hesabınızın ləğv edilməsini və idarəedici orqandan şikayət edilməsini tələb etmə hüququnuz var. Əgər siz Avropa Birliyinin xaricində yaşayırsınızsa, siz də yerli qanunlarınıza uyğun olaraq şəxsi məlumatların subyekti üçün müəyyən hüquqlara malik ola bilərsiniz.

Siz e-poçt vasitəsilə privacyofficer@smg.com Məlumat Mühafizəsi üzrə Məsul şəxsə müraciət edərək yaxud Data Protection Officer, Service Management Group, LLC, 1737 McGee Street, Kansas City, MO 64108. ünvanına yazaraq belə tələbinizi çatdıra bilərsiniz.

## 8. ŞƏXSİ MƏLUMATLARIN VERİLMƏMƏSİNİN NƏTİCƏLƏRİ

Bizim Sorğularda iştirak etmək könüllü olsa da, Sorğunun tələb etdiyi bütün məlumatları təmin etmədiyiniz halda, siz bəzi imtiyazlar, mükafatlar yaxud güzəştlər üçün uyğun görülməyə bilərsiniz.

## 9. KUKİLƏR SİYASƏTİ

### 9.1. Kuki Nədir

SMG və bizim xidmət provayderlərimiz kukilər adlanan kiçik mətn fayllarından istifadə edirlər. **“Kukilər”** sizin veb brauzerinizə göndərilmiş yaxud ondan yaxud istifadəçinin identifikasiya adı, istifadəçi parametrləri, saytları ziyarətetmə tarixi kimi kompyuteriniz barədə məlumatların və Xidmətlərdən istifadə edərkən yerinə yetirdiyiniz fəaliyyətlərin yer aldığı kompyuterinizin, mobil cihazınızın yaxud tabletinizin hard diskindən giriş əldə edilən kiçik kompyuter fayllarıdır. Kuki adətən yarandığı domenin adından (İP ünvanı), Kukinin “istismar müddətindən” (yəni, nə zaman bitməsi) və necə gəldi yaradılmış unikal nömrədən yaxud identifikatordan ibarət olur. Kukiləri Şəxsi Məlumatlara qoşmaq olar.

### 9.2. Biz kukilərdən və verilənlərin toplanılmasıvasitələrindən necə istifadə edirik.

Kukilər sizin naviqasiya vərdişlərinizi izləyərək və SMG Xidmətləri ilə olan təcrübənizi fərdiləşdirərək SMG Xidmətlərini yaxşılaşdırmağımıza kömək edir. Bu, bizə SMG Xidmətləri barədə olan texniki və naviqasiya məlumatlarını təhlil etməyə imkan verir, dələduzluğun aşkar edilməsi və qarşısının alınmasında kömək edir.

Biz həmçinin, ümumi şəkildə “**Verilənlərin toplanılmasıvasitələri”** kimi adlandırdığımız Kukilərdən və verilənlərin toplanılmasıvasitələrindən SMG Xidmətləri ilə olan təcrübənizi yaxşılaşdırmağa kömək etmək üçün istifadə edirik (məsələn, sizə bizi ziyarət etməyə nə zaman qayıdacağınızı xatırladaraq və gördüyünüz məzmunu sizin üçün daha uyğun hala gətirərək).

SMG Xidmətləri həmçinin, verilənlərin toplanılmasıvasitələrindən, əməliyyat sistemi növü, brauzer növü, domen və digər sistem parametrləri, habelə sisteminizin istifadə etdiyi dil, cihazınızın yerləşdiyi ölkə və saat qurşağı kimi məlumatları SMG Xidmətlərini əldə etmək üçün istifadə etdiyiniz cihazdan toplamaq üçün istifadə edə bilər.

### 9.3. Kukilərə nəzarətiniz

Veb-brauzerlər Kukilərin çoxuna brauzer parametrləri vasitəsilə bəzi nəzarətetmə imkanı verir. Bəzi veb-brauzerlər (mobil cihaz veb-brauzerləri daxil olmaqla) sizə Kukilərdən imtina etmək imkanı verən yaxud Kuki kompyuterinizə, tabletinizə yaxud mobil cihazınıza yerləşdirilən zaman sizi xəbərdar edən parametrlərlə təmin edirlər. Siz mobil cihaz identifikatorlarından mobil cihazınızın müvafiq parametrini aktivləşdirərək imtina edə bilərsiniz. Sizdən SMG-nin Kukilərini və mobil cihaz identifikatorlarını qəbul etmək tələb edilməsə də, əgər onları bloklasanız yaxud onlardan imtina etsəniz, SMG Xidmətlərinin mövcud olan bütün xüsusiyyətlərinə giriş əldə etmək imkanınız olmaya bilər. Bundan əlavə əgər siz, bizdən veb-saytlarımızda və/yaxud tətbiqi proqramlarımızda kukilərdən istifadə edilməsinə razılığınızı almağı tələb edən inzibati-ərazi vahidində yaşayırsınızsa, sizə həmin veb-saytlarda və/yaxud tətbiqi proqramlarda kuki seçimini idarə etmək imkanı veriləcək; lakin bəzi kukilərin olması belə veb-saytların və tətbiqi proqramlarınəsas funksionallığını dəstəklədikləri üçün zəruridir və siz həmin kukiləri deaktiv edə bilməzsiniz.

## 10. HESAB MƏLUMATINIZIN İDARƏ EDİLMƏSİ

Bizdəki məlumatlarda haqqınızda olan faktların qeyri-dəqiqliyi ilə məşğul olmaq və onları düzəltmək üçün müvafiq SMG xidmətinin hesabat bölməsini ziyarət edə bilərsiniz. Şəxsi Məlumatlarınızı necə əldə etmək yaxud onlarda düzəlişlər etmək barədə suallarınız varsa, e-poçt vasitəsilə privacyofficer@smg.com müraciət edərək yaxud Data Protection Officer, Service Management Group, LLC, 1737 McGee Street, Kansas City, MO 64108 ünvanına yazaraq, Məlumat Mühafizəsi üzrə Məsul şəxslə əlaqə saxlayın.

## 11. UŞAQLARIN MƏXFİLİYİNİN QORUNMASI

SMG Xidmətləri ümumi auditoriyalar üçün düşünülmüşdür və onlar bizim fəaliyyət göstərdiyimiz bütün inzibati-ərazi vahidlərində Şəxsi Məlumatlarının emal edilməsinə razılıq verə bilmə yaşının altında olan uşaqlar üçün nəzərdə tutulub. Biz belə insanların Şəxsi Məlumatlarını bilərəkdən toplamırıq. Əgər sizəŞəxsi Məlumatlarının emal edilməsinə qanuni olaraq razılıq verə bilmə yaşının altında olan uşağın valideynlərinin razılığı olmadan Şəxsi Məlumatlarını bizə təqdim etdiyi bəlli olarsa, e-poçt vasitəsilə privacyofficer@smg.com müraciət edərək yaxud Data Protection Officer, Service Management Group, LLC, 1737 McGee Street, Kansas City, MO 64108. ünvanına yazaraq, Məlumat Mühafizəsi üzrə Məsul şəxslə əlaqə saxlayın. Əgər Şəxsi Məlumatlarının emal edilməsinə qanuni olaraq razılıq verə bilmə yaşının altında olan uşağın valideynlərinin razılığı olmadan Şəxsi Məlumatlarını bizə təqdim etdiyi bəlli olarsa, biz belə məlumatları silmək və həmin uşağın hesabını ləğv etmək üçün mümkün olduğu qədər tez olaraq tədbirlər görürük.

## 12. ÜÇÜNCÜ TƏRƏFLƏRİN XİDMƏTLƏRİNƏ LİNKLƏR

SMG Xidmətləri, onunla assosiativ əlaqəsi olmayan üçüncü tərəf veb-saytları və xidmətlərinə linklər (“**Üçüncü Tərəfin Xidmətləri**”) ehtiva edə bilərlər. Üçüncü Tərəfin Xidmətlərinə olan hər hansı link bizim onu yaxud onda olan məlumatın keyfiyyətini yaxud dəqiqliyini təqdir etməmiz demək deyildir . Əgər siz Üçüncü Tərəfin Xidmətlərini ziyarət etmək qərarına gəlsəniz, siz bu Məxfilik Siyasətində müəyyən edilmiş şəxsi məlumatın istifadə qaydalarına yox, üçüncü tərəfə məxsus olan şəxsi məlumatın istifadə qaydalarına əməl etməlisiniz .

## 13. MƏLUMATIN TƏHLÜKƏSİZLİYİ

SMG Şəxsi Məlumatların təhlükəsizliyinivə məxfiliyini dəstəkləməyə kömək etmək üçün nəzərdə tutulmuş və texniki, fiziki və təşkilati tədbirlər həyata keçirən məlumat təhlükəsizliyi proqramına malikdir; Şəxsi Məlumatların məxfiliyinə, toxunulmazlığına və mövcudluğuna qarşı gözlənilən təhlükələrdən qoruyur; və Şəxsi Məlumatlarınızın itməsinə, yanlış istifadə edilməsinə, icazəsiz olaraq dəyişdirilməsinə yaxud ləğv edilməsinə və icazəsiz əldə edilməsinə yaxud açıqlanmasına imkan vermir.

Bununla belə, hər dəfə Şəxsi Məlumatlar emal edilən zaman, belə məlumatların itməsi, yanlış istifadə edilməsi, dəyişdirilməsi, icazəsiz əldə edilməsi, bütünlüyünə xələl gətirilməsi və/yaxud icazəsiz olaraq üçüncü tərəf tərəfindən başqa yolla əldə edilməsi riski mövcuddur. Heç bir sistem yaxud məlumatların internet üzərindən ötürülməsi heç bir halda tamamilə təhlükəsiz deyildir. Şəxsi Məlumatlarınızı qorumaq üçün SMG-nin mövcud olan texniki, fiziki və təşkilati tədbirlərindən əlavə, müvafiq təhlükəsizlik tədbirlərindən istifadə etməlisiniz. Əgər siz SMG hesabınızın yaxud bizə təqdim etmiş olduğunuz istənilən məlumatın artıq təhlükəsiz olmadığını hesab edirsinizsə, dərhal bizim Məlumat Mühafizəsi üzrə Məsul şəxsi e-poçt vasitəsilə məlumatlandırınprivacyofficer@smg.com yaxud zəng edərək 1-800-764-0439 SMG-nin Məlumat Mühafizəsi üzrə Məsul şəxsi ilə danışmağı xahiş edin.

## 14. COĞRAFİ AMİLLƏR VƏ ŞƏXSİ MƏLUMATIN SƏRHƏDLƏR ÜZƏRİNDƏN ÖTÜRÜLMƏSİ

SMG, SMG Xidmətlərinə Amerika Birləşmiş Ştatlarından nəzarət edir və onları göstərir. SMG Şəxsi Məlumatlarınızı Birləşmiş Ştatlarda, Birləşmiş Krallıqda, Yaponiyada yaxud Asiyanın və ya Avropa Birliyinin başqa yerində ötürür, saxlayır və emal edir. Diqqətə alın ki, Şəxsi Məlumatlarınız ötürülmüş olduğu ölkənin məlumatın qorunması və məxfiliyi qanunları sizin ölkənizdə olan qaunlar kimi mükəmməl olmaya bilər. Məsələn, Birləşmiş Ştatlara ötürülmüş Şəxsi Məlumatlar qanunla qəbul edilmiş tələblərlə federal və ştat dövlət orqanları tərəfindən giriş üçün açıq olmalıdır.

Şəxsi Məlumatların Avropa İqtisadi Birliyindən (“AİB”) Birləşmiş Ştatlara ötürülməsi AB-ABŞ Məxfi Məlumatların Mübadiləsi razılaşmasına uyğun həyata keçirilir. SMG AİB-dən olan Şəxsi

Məlumatların toplanılması, istifadə edilməsi, paylaşılması və saxlanılması bizim Məxfi Məlumatların Mübadiləsi sertifikatlaşdırma prosedurunda təsvir edildiyi kimi AB-ABŞ Məxfi Məlumatların Mübadiləsi razılaşmasının prinsiplərindən istifadə edir və onlara əməl edir. Məxfi Məlumatların Mübadiləsi Razılaşmasını burada nəzərdən keçirin. Məxfi Məlumatların Mübadiləsi Razılaşması barədə daha ətraflı buradan öyrənin. SMG ABŞ Federal Ticarət Komissiyasının nəzarəti ilə tənzimlənir və o, SMG-nin şəxsi məlumatlar ötürmüş olduğu üçüncü tərəflərin Məxfi Məlumatların Mübadiləsi Razılaşmasının Prinsiplərinə uyğun gəlməyən şəkildə Şəxsi Məlumatların emalına görə məsuliyyət daşıyacaq (əgər SMG zərərlərin ortaya çıxmasına səbəb olmadığını sübut edə bilməzsə). Şəxsi Məlumatların AİB xaricindəki bütün ötürülmələri bu Məxfilik Siyasətinə və bütün müvafiq qanunlara uyğun olaraq həyata keçirilməlidirlər. Əgər bizim Məxfi Məlumatların Mübadiləsi Razılaşması barədə şikayətiniz varsa, bizim Məlumat Mühafizəsi üzrə Məsul şəxslə e-poçt vasitəsilə privacyofficer@smg.com yaxud Data Protection Officer, Service Management Group, LLC, 1737 McGee Street, Kansas City, MO 64108 ünvanına yazmaqla müraciət edin. Siz həmçinin şikayətinizi pulsuz olaraq bizim seçilmiş müstəqil mübahisəli halları həlletmə orqanımıza, Amerika Arbitraj Assosiyasına verə bilərsiniz və müəyyən hallarda, Məxfi Məlumatların Mübadiləsi Razılaşması üzrə arbitraj prosesindən istifadə bilərsiniz .

İnglis dilində olan bu Məxfilik Siyasəti SMG Xidmətləri ilə əlaqədar şəxsi məlumatların istifadə edilməsi qaydası üzrə SMG-nin rəsmi bəyanatıdır. İnglis dilində olan bu Məxfilik Siyasəti ilə onun başqa dilə olan tərcüməsi arasında yaranan istənilən uyğunsuzluq halında, İngilis dilində olan bu sənədə üstünlük verilməlidir.

Siz həmçinin seçilmiş müstəqil mübahisələrin həlli orqanına, Amerikanın Arbitraj Assosiasiyasına (http://go.adr.org/privacyshield.html) bir şikayət vermək və müəyyən hallarda Privacy Shield arbitraj prosesini dəvət edə bilərsiniz.

**15. BİZİMLƏ ƏLAQƏ**

Əgər məxfilik barədə suallarınız varsa, Şəxsi Məlumatlarınızın əldə edilməsi yaxud onların yenilənməsi və ya Şəxsi Məlumatlarınızın emalı ilə əlaqədar şikayətləriniz varsa, bizim Məlumat Mühafizəsi üzrə Məsul şəxslə e-poçt vasitəsilə əlaqə saxlayın privacyofficer@smg.com.

Siz həmçinin bizə yaza bilərsiniz:

Service Management Group, LLC
Attn: Data Protection Officer
1737 McGee Street
Kansas City, MO 64108

Service Management Group, Ltd.
Attn: Data Protection Officer
38-40 The Maltings
St Albans
Hertfordshire AL1 3HL
UNITED KINGDOM

Service Management Group G.K.
Attn: Data Protection Officer
2-7-16 No. 3 Komoriya Building 9F
Hamamatsu-cho, Minato-ku
Tokyo 1050013, Japan

## 16. MƏLUMAT NƏZARƏTÇİSİ VƏ MƏLUMAT MÜHAFİZƏSİ ÜZRƏ MƏSUL ŞƏXS

SMG tərəfindən toplanılmış Şəxsi Məlumatlara Service Management Group, LLC, 1737 McGee Street, Kansas City, MO 64108, tərəfindən nəzarət edilir. Siz e-poçt vasitəsilə privacyofficer@smg.com yaxud Data Protection Officer, Service Management Group, LLC, 1737 McGee Street, Kansas City, MO 64108. ünvanına yazaraq bizim Məlumat Mühafizəsi üzrə Məsul şəxs ilə əlaqə saxlaya bilərsiniz.